Xalq qəzeti 2021.- 30 yanvar.- S.10.

***Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası bir əsrdən artıq sürən sənət ömründə dünyanın müxtəlif ölkələrində səhnə həyatı yaşayıb. Ötən ilin sonunda operetta Bolqarıstanın qədim tarix və mədəniyyət mərkəzi olan Kırcali şəhərində nümayiş etdirildi.***



# "Arşın mal alan"ın yeni üfüqləri

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və ölkəmizin Bolqarıstandakı səfirliyinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn tamaşanı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev hazırlayıb.

Rejissor bunları dedi:

– Bu operetta dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə tamaşaya qoyulub. Biz Çində bu tamaşanı hazırlayarkən məlum oldu ki, çinlilər özləri "Arşın mal alan"ı hələ 1959-cu ildə oynayıblar. Şəkilləri gördüm, Əsgəri eynilə Rəşid Behbudova oxşadıb qrimləmişdilər. Həmin aktyorlar sağ idilər, gəlib görüşdülər, məşqlərə də baxdılar. Tamaşanın rəssamı Tahir Tahirov tam yeni, təbii, Azərbaycan koloritli tərtibat verdi. Tamaşa Pekində oynanıldı, özü də Çin dilində. Ümumilikdə isə bu əsər 90 ölkənin səhnəsində oynanılıb.

Dahi Üzeyir bəyin dünyaca məşhur əsərinin Bolqarıstanda premyerasının keçirilməsi də əlamətdar hadisə oldu. Üzeyir bəyin opera və operettalarına ayrı-ayrı ölkə və şəhərlərdə quruluş vermişəm. Belarusda, Moskvada, Tacikistanda, Samsunda bu operetta səhnəyə qoyulub. Mənim üçün çox xoşdur ki, dünyanın müxtəlif ölkələrində, fərqli estetikaya məxsus səhnələrdə Azərbaycan bəstəkarlarının əsərlərini hazırlayıram. "Arşın mal alan"ı ilk dəfə 1997-ci ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında səhnəyə qoymuşam. O vaxt bu tamaşaya ulu öndər Heydər Əliyev gəlib baxmışdı və tamaşadan sonra yaradıcı heyətlə görüşüb çox dəyərli fikirlərini bölüşmüşdü.

Dünyanın hansı ölkəsində olursa-olsun, əsərə həm aktyorlar, həm də tamaşaçılar eyni sevgi və maraqla yanaşırlar. Təbii ki, çin aktyoru ilə belarus aktyoru fərqli düşüncəyə, münasibətə, plastikaya malik insanlardır, eyni ilə də bolqar və türk aktyoru. Amma buna baxmayaraq, onların hər birinin əsərə münasibəti eynidir. O qədər sevgi ilə yanaşırlar ki... Üzeyir bəy Azərbaycan xalqının ruhunu öz musiqisinə dərindən həkk edə bilib, bu ruh o qədər gözəl və safdır ki, dünyanın hansı ölkəsində olursan-ol, həmin ölkənin insanlarına sevgi bəxş edə bilir. Eyni zamanda, libretto Üzeyir bəyin özünə məxsusdur və o qədər maraqlı yazılıb ki, dərhal tamaşaçı diqqətinə hakim kəsilir. Fərqli cəhətlər isə oyun tərzində özünü göstərir. Ola bilsin ki, mizanlarda oxşarlıq olur, amma ifadə vasitələri fərqlidir. Səhnədə obraza yanaşmaları fərqlidir. Hansı ölkədə tamaşanı qoyuramsa, məhz o ölkənin rəssamı, xoreoqrafı ilə işləyirəm. Buna görə də onların yanaşmasının da təsiri və fərqi hiss olunur. Bu baxımdan hər ölkədə tamaşa özünəməxsusluğu ilə yadda qalır.

Tamaşa ilə bağlı dəvət alandan sonra bir neçə dəfə Bolqarıstana getməli oldum. İlk dəfə tanışlıq məqsədilə getdim. Həm teatrın, həm truppanın imkanları ilə tanış oldum. Teatr tam fərqli istiqamət və estetikada tamaşalar hazırlayır. Danışığımız zamanı teatrın rəhbərliyinin və truppanın bu operettanı çox səmimi şəkildə tamaşaya qoymağı arzuladıqlarını hiss etdim. Buna görə də qərara gəldik ki, hansı qaydada olursa-olsun, tamaşanı mütləq hazırlayaq. Onu da qeyd edim ki, "Arşın mal alan" 1960-cı illərdə həmin teatrın səhnəsində oynanılıb. Tam fərqli bir üslubda. Amma təəssüf ki, o tamaşadan nə bir dekorasiya elementi, nə də geyim qalmışdı. Lakin hiss olunurdu ki, əsər hələ də yaddaşlarında qalıb. İlk səfərdən başladıq masaarxası məşqlərə. Mətn, xarakterlərin açılışı ilə düşüncələrimi bölüşdüm, rolları böldük. Rəssam, xoreoqraf işinin xeyli hissəsi görüldü. Mən Bakıya qayıtdım, məşqlər onlayn davam edirdi. Mart ayında getdim Bolqarıstana. "Arşın mal alan"ın Bolqarıstanda təqdimatı Üzeyir Hacıbəylinin 135 illik yubileyinə həsr olunmuşdu.

Tamaşa, həmçinin Kırcali Teatrının yaradılmasının 60-cı ilinə təsadüf edirdi. Premyera Novruz ərəfəsinə nəzərdə tutulmuşdu. Səhnə məşqlərinə başladıq, tam hazır olanda pandemiya başladı. Nəhayət, 2020-ci ilin sonunda pandemiya şəraitinin qaydalarına uyğun olaraq yarım zal ilə tamaşanın premyerası oldu. Premyera Bolqarıstan mediasında geniş işıqlandırıldı, tamaşa repertuara düşdü. Tamaşaçıların rəyinə görə, uğurlu alınmışdı. Artıq planlaşdırılır ki, teatr bu tamaşa ilə Bolqarıstanın müxtəlif şəhərlərinə, eləcə də Türkiyəyə qastrol səfərlərinə gedəcək.

Dünyanın hansı ölkəsində olursa-olsun, Üzeyir bəyin əsərlərini izləyən tamaşaçı heyran qalır. Fransız, ingilis, ərəb – hər kəs deyir ki, biz belə bir əsər hələ izləməmişik. Bir çox ölkələrdə bu əsərləri səhnələşdirdiyim üçün, eləcə də bizim teatra əcnəbi tamaşaçılar gəldiyindən bunu əminliklə deyə bilirəm. Üzeyir bəy dünyanın elə sayılıb-seçilən bəstəkarlarındandır ki, onun əsərləri hər yerdə uğurla nümayiş oluna bilir.

Bu yaxınlarda Tacikistanın paytaxtı Düşənbədəki Sədrəddin Ayni adına Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının təqdimatı keçirilib. Təqdimatda Azərbaycanın Tacikistandakı səfiri Həsən Məmmədzadə, səfirliyin əməkdaşları, diasporumuzun üzvləri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Şükürlər olsun ki, Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuz Qarabağımızı işğaldan azad etdi. Artıq Qarabağda yeni həyat başlayır. Şuşada mədəni həyat yenilənir və orada yeni layihələr reallaşacaq. Heç şübhəsiz ki, Üzeyir Hacıbəylinin də əsərləri Şuşada oynanılacaq və dünyanın hər yerindən gəlib bəstəkarın öz yurdunda bu əsərləri izləyəcəklər.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***